Azərbaycan Respublikası Təhsil Nazirliyi
BAKI SLAVYAN UNİVERSİTETİ

*Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş*

# AZƏRBAYCANŞÜNASLIĞIN AKTUAL PROBLEMLƏRİ

## IX BEYNƏLXALQ ELMİ KONFRANSIN

## MATERİALLARI

*3-4 may 2018-ci il*

Bakı – 2018

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

*Ümummilli Lider Heydər Əliyevin anadan olmasının*
*95-ci ildönümünə həsr olunmuş*

# AZƏRBAYCANŞÜNASLIĞIN AKTUAL PROBLEMLƏRİ

IX Beynəlxalq Elmi Konfransın

## MATERİALLARI

3-4 may 2018-ci il

Bakı, Azərbaycan

**Redaksiya Heyəti:**

N.M.Əliyeva
R.M.Novruzov
T.H.Cəfərov
İ.Z.Qasımov
S.S.Məmmədov
İ.N.Quliyev
R.K.Rəsulov

**AZƏRBAYCANŞÜNASLIĞIN AKTUAL PROBLEMLƏRİ.**
**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş IX beynəlxalq elmi konfransın materialları.** - Bakı: Mütərcim, 2018. – 680 səh.

© BSU, 2018

**Konfransın təşkilat komitəsi**

1. **Əliyeva Nurlana Müzəffər qızı** - Bakı Slavyan Universitetinin rektoru, filologiya elmləri doktoru, professor - sədr;
2. **Novruzov Rafiq Manaf oğlu** - Bakı Slavyan Universitetinin elmi işlər üzrə prorektoru, filologiya elmləri doktoru, professor - sədr müavini;
3. **Cəfərov Telman Həmzəağa oğlu** - Bakı Slavyan Universitetinin tədris işləri üzrə prorektoru, filologiya elmləri doktoru, professor;
4. **Qafarova Sahibə Əli qızı** - Bakı Slavyan Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor;
5. **Sultanova Xanım Rza qızı** - Bakı Slavyan Universitetinin tərbiyə işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru;
6. **Nağıyev Əbülfəz İbrahim oğlu** - Bakı Slavyan Universitetinin inzibati-təsərrüfat işləri üzrə prorektoru;
7. **Aslanova Zemfira Beytulla qızı** - Bakı Slavyan Universitetinin maliyyə şöbəsinin müdiri, baş mühasib əvəzi;
8. **Qocayev Məmməd Qoca oğlu** - Bakı Slavyan Universitetinin Rus ədəbiyyatı tarixi kafedrasının müdiri, filologiya elmləri doktoru, əməkdar elm xadimi, professor;
9. **Qasımov İkram Ziyad oğlu** - Bakı Slavyan Universitetinin Müasir Azərbaycan dili kafedrasının müdiri, filologiya elmləri doktoru, professor;
10. **Naciyeva Flora Sultan qızı**- Bakı Slavyan Universitetinin Pedaqoji fakültənin dekanı, filologiya elmləri doktoru, professor;
11. **Həmidov İlyas Həmidulla oğlu** - Bakı Slavyan Universitetinin Filologiya və xarici dil müəllimliyi fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor;
12. **Qeybullayeva Rəhilə Məmməd qızı** - Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor;
13. **Udalıx Qalina Dimitriyevna** - Bakı Slavyan Universitetinin Ümumi dilçilik kafedrasının müdiri, filologiya elmləri doktoru, professor;
14. **Rəsulov Rüstəm Kamal** - Bakı Slavyan Universitetinin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müdiri, professor;
15. **Əliyev Şirinbəy Hacıəli oğlu** - Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent;
16. **İsazadə Validə Cavid qızı** - Bakı Slavyan Universitetinin Müasir rus dili kafedrasının professoru, filologiya elmləri doktoru;
17. **Məmmədov Sadir Surxay oğlu**- Bakı Slavyan Universitetinin "Azərbaycanşünaslıq" elmi-tədqiqat laboratoriyasının müdiri, dosent;
18. **Əhməd Əsgər Sücayət oğlu**- Bakı Slavyan Universitetinin Diplomatiya və xarici siyasət kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent;
19. **Abbasova Ülviyyə Vaqif qızı** - Bakı Slavyan Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru;
20. **Alxasov Yaşar Kamil oğlu** - Bakı Slavyan Universitetinin Təcrübə və məzunların karyera inkişafı şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru;
21. **Quliyev İbrahim Nəsir oğlu** - Bakı Slavyan Universitetinin Mətbuat xidmətinin rəhbəri, filologiya üzrə fəlsəfə doktoru
22. **Həsənov Fikrət Surxay oğlu** - Bakı Slavyan Universitetinin Həmkarlar təşkilatının sədri;
23. **Babaşova Xalidə Əliabbas qızı** - Bakı Slavyan Universitetinin Elmi tədqiqatların təhlili və innovasiyalar şöbəsinin müdiri;
24. **Niftalıyeva İlhamə Kərim qızı** – Elmi tədqiqatların təhlili və innovasiyalar şöbəsinin operatoru

## MÜNDƏRİCAT

Abbasov Ədalət Məhəmmədəli oğlu
QEYRİ-MÜƏYYƏN ŞƏXSLİ CÜMLƏNİN ÜSLUBİ-SEMANTİK XÜSUSİYYƏTLƏRİ....................4
Abbasova Zibeydə Ağahadı qızı
ОБРАЗОВАТЕЛЬНЫЙ ТУРИЗМ: ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ....................6
Abdulkadir Öztürk
DERLEME SÖZLÜĞÜ'NDE AZERBAYCAN TÜRKLERİ İLE İLGİLİ SÖZ VARLIĞI (DERLEME SÖZLÜĞÜ'NDƏ AZƏRBAYCAN TÜRKLƏRİ HAQQINDA SÖZLƏR)....................9
Abdullabəyova Pərvin Yaqub qızı
SARI RƏNGİN ÜSLUB İMKANLARI (NİZAMİ GƏNCƏVİNİN POETİK DİL MATERİALLARI ƏSASINDA).....11
Abdullayeva Şəhla Abdulla qızı
HEYRAN XANIM YARADICILIĞINDA "YUSİF VƏ ZÜLEYXA" SÜJETİ....................14
Abdullayeva Sevinc Nəriman qızı
VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ. SƏMƏD VURĞUNUN "AZƏRBAYCAN" ŞEİRİ ÜZƏRİNDƏ İŞ....................16
Adgözəlova Günel Əlişirin qızı
HEYDƏR ƏLİYEV VƏ QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCAN....................18
Adilova Gülqız Hacıbala qızı
AZƏRBAYCAN BAYATILARINDA TABESİZ MÜRƏKKƏB CÜMLƏLƏR....................20
Ağasiyeva Elşanə Əziz qızı
ОТРАЖЕНИЕ НАЦИОНАЛЬНОГО ДУХА АЗЕРБАЙДЖАНСКОГО НАРОДА В ИДЕОЛОГИИ АЗЕРБАЙДЖАНСТВА....................22
Ağayeva Nigar Ağaddə qızı
GÜLHÜSEYN HÜSEYNOĞLUNUN MƏNSUR ŞEİRLƏRİNDƏ ŞİFAHİ XALQ ƏDƏBİYYATI MOTİVLƏRİ.....24
Allahverdiyeva Zəhra Abas qızı
NİZAMİ GƏNCƏVİNİN "MƏXZƏNÜL-ƏSRAR" ("SİRLƏR XƏZİNƏSİ") MƏSNƏVİSİNƏ YAZILMIŞ ŞƏRHLƏR HAQQINDA....................27
Альменбетова Уржамал Абдуллаевна
ДИПЛОМАТИЧЕСКИЕ И КУЛЬТУРНЫЕ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И КАЗАХСТАН....28
Алхасов Яшар Камил оглы
ВОЗМОЖНОСТИ ИНТЕГРАЦИИ НА УРОКАХ РУССКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО....................32
Annagulieva Maral Məhəmmədovna
В "КНИГЕ МОЕГО ДЕДА ГОРКУТА" ДРУЖБА КАК НРАВСТВЕННАЯ ЦЕННОСТЬ ОГУЗОВ....................35
Aslanova Mətanət Musa qızı
M.Ə.SABİRİN ƏSƏRLƏRİNDƏ ANTONİM SÖZLƏR....................38
Ахундова Мехри Бахлул гызы
Касумова Кенуль Исмаил гызы
АЗЕРБАЙДЖАНОВЕДЧЕСКИЙ МАТЕРИАЛ КАК КОМПОНЕНТ МЕЖКУЛЬТУРНОЙ КОММУНИКАТИВНОЙ КОМПЕТЕНЦИИ....................40
Axundova Sevda Məmməd qızı
AZƏRBAYCAN – ABŞ MÜNASİBƏTLƏRİNİN İNKİŞAF TRAYEKTORİYASI....................43
Aydoğmuş Erdal
AZERBAYCAN VE TÜRKİYE TÜRKÇESİNDEKİ ORTAK AKRABALIK TERİMLERİ....................45
Babanlı Yusif Məmməd oğlu
ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN OLİMPİYA OYUNLARINDA AZƏRBAYCAN İDMANÇILARINA GÖSTƏRDİYİ DİQQƏT VƏ QAYĞISI....................47
Бабашова Халида Алаббас гызы
ПОСЛОВИЧНЫЕ ВЫРАЖЕНИЯ В РУССКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ, ПОСТРОЕННЫЕ ПО МОДЕЛИ МНОГОКОМПОНЕНТНЫХ ПРЕДЛОЖЕНИЙ....................49
Babayev Bağır Həmid oğlu
XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN DEMOKRATİK FİKRİNİN İSTİQLALİYYƏT MÜBARİZƏSİNDƏ İSTİQLALÇILIQ-AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI....................52
Babayev İsrafil İslam oğlu
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İSİMLƏRDƏN YARANAN ZƏRFLƏR....................54
Babayev Lətif Şükür oğlu
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ÜÇÜNCÜ HÖKUMƏTİNİN QURULMASINA DAİR....................56
Babazadə Ayna Çingiz qızı
ƏZİZƏ CƏFƏRZADƏ NƏSRİNDƏ TARİX VƏ BƏDİİ TƏXƏYYÜLÜN YERİ....................59
Bağırzadə Cavid Vəkil oğlu
İLK ORTA ƏSRLƏRDƏ QARABAĞ VƏ ŞİRVAN BÖLGƏLƏRİ ARASINDA İQTİSADİ VƏ MƏDƏNİ ƏLAQƏLƏRƏ DAİR (arxeoloji materiallar əsasında)....................62

Ахмедова Севда Агамехти гызы
Бархалов Галиб Наджми оглы
ПЕРЕХОДНЫЙ ПЕРИОД И ПОЛИТИЗАЦИЯ ВЛАСТИ В АЗЕРБАЙДЖАНЕ.....64
Baxışova Yaqut Xəlil qızı
MƏTNDƏ İNFORMASİYANIN VERİLMƏSİNİN RETROSPEKTİK VƏ PROSPEKTİK XÜSUSİYYƏTLƏRİ......66
Baxşəliyev Vəli Baxşəli oğlu
AZƏRBAYCANIN ENEOLİT MƏDƏNİYYƏTİNİN ÖYRƏNİLMƏSİNDƏ NAXÇIVAN ABİDƏLƏRİNİN ƏHƏMİYYƏTİ.....68
Bayrakdar M. Cengizhan Faris oğlu
AZERBAYCAN TÜRKÇESİNDE "BAŞ" SÖZÜ İLE KURULAN ATASÖZLERİNİN ANLAMSAL ÖZELLİKLERİ.....70
Байрамова Мехрибан Закир гызы
ФРАЗЕОСЕМАНТИЧЕСКОЕ ПОЛЕ «ВОЗДЕЙСТВИЕ» В РУССКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ....72
Bəşirova Aynur Hilal qızı
SADƏ CÜMLƏ KONSTRUKSİYALARINDAN TABELİ MÜRƏKKƏB CÜMLƏYƏ DOĞRU İNKİŞAF PROSESİ.....75
Bilal Durna İzzət oğlu
AZƏRBAYCAN DİLİNDƏ FRAZEOLOJİ VAHİDLƏRİN FRAZEOLOGİYA LÜĞƏTLƏRİNDƏ TƏSVİRİ VƏ ONLARIN KOQNİTİV TƏHLİLİ.....76
Bünyadova Şirin Teymur qızı
NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA DİNİ TƏSƏVVÜRLƏRİN İZLƏRİ.....78
Cabbarlı Ələkbər Həsən oğlu
NAXÇIVAN AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ.....83
Джаббарлы Севиндж Шыхали гызы
ОСОБЕННОСТИ АУТЕНТИЧНОГО ПЕСЕННОГО МАТЕРИАЛА И ЕГО РОЛЬ В ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ.....85
Cahangirova Nərmin Fəyannum qızı
KAMAL TALIBZADƏNİN XATİRƏLƏRİNDƏ ABDULLA ŞAİQ.....87
Cavadova Zərifə Şamil qızı
AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİNİN ÖLKƏMİZİN DÖVLƏTÇİLİK TARİXİNDƏKİ FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU .....89
Cəbrayılov Nəsib Hüseyn oğlu
M.S.ORDUBADİNİN "QILINC VƏ QƏLƏM" ROMANINDA DİALOQ VƏ MONOLOQLARIN POETİKASI......91
Cəbrayılova Zoya Hüseyn qızı
MAHMUD KAŞGARİNİN «DİVANİ-LÜĞƏT-İT TÜRK» ƏSƏRİNDƏ İŞLƏNƏN ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏRİN SEMANTİK XÜSUSIYYƏTLƏRİ VƏ ONLARIN MÜASİR AZƏRBAYCAN DİLİNDƏ SİNONİM VARİANTLARI.....94
Джафаров Тельман Гамзаага oğlu
О ПЕРСПЕКТИВАХ РАССМОТРЕНИЯ АЗЕРБАЙДЖАНОВЕДЕНИЯ В КОНТЕКСТЕ ЕВРАЗИЙСКИХ ИССЛЕДОВАНИЙ.....97
Cəfərzadə-Əqiq Gülnar Zöhrab qızı
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XX YÜZİLLİKDƏ İRANDA ƏDƏBİ-MƏDƏNİ MÜHİTƏ TƏSİRİ.....99
Jafarguliyeva Mayya Rzaqulu
MULTICULTURALISM IN HEIs OF AZERBAIJAN: NEW TRENDS AND RESPONSES TO CULTURAL DIVERSITY.....101
Çernova Polina Vasilyevna
ГЕЙДАР АЛИЕВ: ВАЖНЫЕ АСПЕКТЫ РАЗВИТИЯ МОЛОДЕЖНОЙ КУЛЬТУРЫ.....103
Dağlı Hacı Fadil oğlu
AZERBAYCAN EDEBİYATINDA ATLA İLGİLİATASÖZLERİNİN SÖZDİZİMSEL ÖZELLİKLERİ ÜZERİNE BİR DEĞERLENDİRME.....105
Doğan İsmail
AZERBAYCAN SOVYET ANSİKLOPEDİSİ.....108
Elyasova Nərmin Rafət qızı
AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN XARİCDƏ TƏBLİĞİ.....110
Eyvazlı Cəfər Vaqif oğlu
ƏHMƏD AĞAOĞLU YARADICILIĞINDA MULTİKULTURAL VƏ TOLERANT İDEYALAR.....111
Eyvazov Pərvin Eyvaz oğlu
BƏKİR ÇOBANZADƏNİN DİLÇİLİK ARAŞDIRMALARINDA NİTQ HİSSƏLƏRİNİN TƏSNİFİ PROBLEMİ..114
Eyyubov Ramazan Əzizxan oğlu
İlyasova Sevinc Elman qızı
İBTİDAİ SİNİFLƏRDƏ VAXTIN ÖLÇÜLMƏSİ.....117

Əbdülhəsənli Tofiq
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜ ƏDƏBİYYATI HAQQINDA BƏZİ QEYDLƏR....................120
Əhmədov Alpay Azər oğlu
"AZƏRBAYCANÇILIQ" İDEOLOGİYASI MÜASİR REALLIQLAR KONTEKSTİNDƏ....................123
Əhmədov Aqil Pirmurad oğlu
AZƏRBAYCAN RESPUBLİKASINDA DAVAMLI İNKİŞAFIN MİQRASİYA SİYASƏTİNƏ TƏSİRİ....................125
Əhmədov Namiq Qədim oğlu
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İRSİNİN TƏQDİMATINDA MƏTBUATIN ROLU....................127
Əhmədov Rüstəm Vəli
AXC-NİN YARADILMASINI ZƏRURİ EDƏN İCTİMAİ-SİYASİ ŞƏRAİT....................129
Əhmədov Samir Tufan oğlu
AZAD BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ SAHİBKARLIĞIN TƏŞƏKKÜLÜ VƏ SOSİAL YÖNÜMLÜ MİLLİ İQTİSADİ İNKİŞAF ULU ÖNDƏR H.ƏLİYEVİN GÖSTƏRDİYİ YOLDUR....................131
Əhmədov Yaşar Paşa oğlu
ZƏMANƏNİN BÖYÜK TARİXİ ŞƏXSİYYƏTİ....................134
Əhmədova Aynurə Ənvər qızı
AZƏRBAYCANDA ÜNSİYYƏT PROBLEMİ: MULTİKULTURAL DƏYƏRLƏR KONTEKSTİNDƏ....................137
Əhmədova Aysel Vidadi qızı
ORXON ABİDƏLƏRİ VƏ "IRK BİTİG" ÜÇÜN ORTAQ OLAN DÜZƏLTMƏ İSİMLƏR....................139
Əhmədova Aytən Arzulla qızı
QOŞMA VƏ QRAMMATİK ƏLAQƏ MƏSƏLƏLƏRİ....................141
Ələkbərova Lalə Zakir qızı
XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATI VƏ NƏZİRƏ....................143
Ələsgərova Sakibə İsmayıl qızı
M.ŞƏHRİYARIN "HEYDƏRBABAYA SALAM" POEMASI VƏ MİLLİ-DEMOKRATİK HƏRƏKATIN CANLANMASI....................145
Əliyev Adil Sənan oğlu
AZƏRBAYCAN XALQININ DÖVLƏTÇİLİK TARİXİNİN MİSİLSİZ İCTİMAİ, SİYASİ VƏ DÖVLƏT XADİMİ: BÖYÜK AZƏRBAYCANLI HEYDƏR ƏLİYEV....................148
Əliyev Elşad Vüqar oğlu
AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNTERNETDƏ TƏBLİĞATI....................150
Əliyev İlhami Nizam oğlu
XVII ƏSRİN İKİNCİ YARISINDA SƏFƏVİLƏR DÖVLƏTİNDƏ BAŞ VERMİŞ İQTİSADİ TƏNƏZZÜL VƏ BUNUN NAXÇIVAN BÖLGƏSİNDƏKİ SİYASİ VƏZİYYƏTƏ TƏSİRİ....................152
Əliyev Loğman Rəşid oğlu
ƏLİ İLDIRIMOĞLU YARADICILIĞINDA AZADLIQ MOTİVLƏRİ....................154
Əliyeva Aygün Mehnan qızı
AZƏRBAYCAN – AVROPA İTTİFAQI ƏMƏKDAŞLIĞININ ƏSAS İSTİQAMƏTLƏRİ: ŞƏRQ TƏRƏFDAŞLIĞI....................156
Əliyeva Nigar Ramiz qızı
GƏNCLƏRDƏ KREATİV DÜŞÜNCƏNİN FORMALAŞDIRILMASINA DAİR....................158
Əliyeva Nuray Yadigar qızı
NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNİN LÜĞƏT TƏRKİBİNDƏKİ BİR NEÇƏ RUS VƏ AVROPA MƏNŞƏLİ SÖZ HAQQINDA....................160
Алиева Сабина Симург кызы
РОЛЬ ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ И ПЕРСПЕКТИВЫ СОТРУДНИЧЕСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ОРГАНИЗАЦИЕЙ ИСЛАМСКОГО СОТРУДНИЧЕСТВА....................161
Əliyeva Şəhanə Urfan qızı
AZƏRBAYCAN DRAMATURGİYASINDA KONFLİKT TİPLƏRİNİN KODLAŞDIRDIĞI İNFORMASİYA....................164
Алиева Севиндж Алхан кызы
РОЛЬ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ РУССКОЯЗЫЧНОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ....................166
Əliyeva Vüsalə Səfər qızı
ƏHALİ İSTEHLAKININ SİSTEM TƏHLİLİ METODLARI....................168
Əliyeva Xuraman Ağasalam qızı
PARALİNQVİSTİKA KİNETİK KOMMUNİKASİYA FAKTORU KİMİ....................170
Əlizadə Aliyə Ümran Əliağa qızı
ƏLİFBA YAZI MƏDƏNİYYƏTİNİN ƏSASIDIR....................172
Əlizadə Könül Arzu qızı
BƏDİİLİK, ELMİLİK, SƏNƏDLİLİK- ANAR YARADICILIĞININ ÖZÜL DAŞLARI....................175
Əmirli Elnarə Hüseyn qızı
AZƏRBAYCAN ƏFSANƏLƏRİNDƏ DƏYİŞMƏ MOTİVİ....................177

15. Müasir Azərbaycan dili. III cild. Sintaksis. Bakı: Elm, 1981, 444 s.
16. Kamal Abdullayev. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1999, 284 s.
17. İdris Abbasov. Müasir dilçilik baxımından ərəb dili funksional sintaksisinin problemləri. Bakı, "Yazıçı", 2007, 224 s.
18. Əzizə Cəfərzadə. Vətənə qayıt. Bakı, Gənclik, 1977, 302 s.
19. Игор Фридрихович Вардуль. Основы описательной лингвистики (синтаксис и супрасинтаксис). Москва, Наука, 1977, 352 с.

**Summary**

The article deals with the notion of predicate which is one of the disputable questions in the Azerbaijani syntax. The notion is analysed on the plane of the category of predication. On the basis of the factual linguistic material it is based that the category of person is an independent category which involves not only the affixes of predicate, but also the morphological endings of the category of possession. It is concluded that the category of predicate must be considered as a general grammatical category. The verbal predicate is a special category belonging to the verb. The nominal predicate is presented as a notion which must be dealt with in connection with the noun, i. e. as a nominal category.

**Qulusoy İlkin Etibar oğlu**
*filologiya üzrə fəlsəfə doktoru, dosent, Kafkas Üniversitesi, Kars/Türkiyə*

## NƏCƏF BƏY VƏZİROVUN PYESLƏRİNİN DİLİNDƏ TABESİZ MÜRƏKKƏB CÜMLƏLƏR

*Açar sözlər: Nəcəf bəy Vəzirov, XIX əsr, Azərbaycan ədəbi dili, tabesiz mürəkkəb cümlələr*
*Key words: Nadjaf Bey Vezirov, XIX century, Azerbaijani literary language, ompound sentences*

Azərbaycan ədəbiyyatında faciə janrının banisi kimi tanınan Nəcəf bəy Vəzirovu yetişdirən dövr – XIX əsr yeni bir mərhələnin başlanğıcı sayılmaqla yanaşı, Azərbaycan ədəbi dilinin şifahi və yazılı qolunun vəhdət halında inkişafı baxımından böyük əhəmiyyət daşıyır. Azərbaycanda milli dramaturgiyanın əsaslarının qoyulması da bu dövrə təsadüf edir və Azərbaycan mədəniyyəti tarixində bu misilsiz və əlamətdar ədəbi-mədəni hadisənin təşəkkülü bilavasitə M. F. Axundzadənin adı ilə bağlıdırsa, davam etdirilməsi Nəcəf bəy Vəzirovun adı ilə əlaqəlidir. Başqa sözlə, maarifçi dramaturgiyanın yüksəlişində yeni mərhələ Nəcəf bəy Vəzirovun yaradıcılığı ilə başlayır. N. Vəzirov Azərbaycan dilinin incəliklərinə mükəmməl yiyələnmiş, onun səciyyəvi xüsusiyyətlərini, qrammatik qayda-qanunlarını, ən incə çalarlarını, müxtəlif siniflərin nitq-danışıq üslublarını dərindən öyrənmiş, xalq dilinin zəngin söz ehtiyatından, qüdrət və imkanlarından məharətlə istifadə etmişdir. Onun canlı xalq dili əsasında yazdığı pyesləri XIX əsr Azərbaycan dilinin qrammatik quruluşu, lüğət tərkibi haqqında geniş təsəvvür yaradır, müxtəlif istiqamətlərdə milli ədəbi dilin imkanları ilə bağlı məsələləri aydınlaşdırmağa imkan verir. Dolayısıyla, ədibin dilçilikdə tədqiqinə az yer ayrılan pyeslərinin dilində tabesiz mürəkkəb cümlələrin araşdırılması XIX əsr Azərbaycan ədəbi dilinin sintaktik xüsusiyyətlərini öyrənmək baxımından aktuallıq kəsb edir.

N. Vəzirovun pyeslərinin dilində müasir Azərbaycan dilində müşahidə edilən bütün cümlə növlərinə rast gəlmək mümkündür ki, bunlardan tabesiz mürəkkib cümlələr semantik-struktur xüsusiyyətləri ilə diqqəti cəlb edir. Üç müəllifli "Müasir Azərbaycan dili" [1, s.358] kitabındakı təsnifatı və Q. Kazımovun [4, s.280] bölgüsünü nəzərə alaraq, ədibin pyeslərinin dilindəki tabesiz mürəkkəb cümlələri aşağıdakı kimi qruplaşdıra bilərik:

1) Birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələr; 2) Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr; 3) Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr; 4) Səbəb-bəticə əlaqəli tabesiz mürəkkəb cümlələr; 5) Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələr; 6) Qoşulma əlaqəli tabesiz mürəkkəb cümlələr.

1) **Birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələr.** Ədibin pyeslərinin dilində birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlələr sadalama üsulu ilə qurulmuş, komponentlərdə müxtəlif iş və hadisələr qeyd edilmiş, həmin iş və hadisələrin ya eyni zamanda, yaxud da müəyyən ardıcıllıqla icra edildiyi və ya edilmədiyi ifadə olunmuşdur. Belə cümlələrin ***eynizamanlı və ardıcılzamanlı birləşdirmə*** kimi iki növü özünü göstərir:

a) eynizamanlı birləşdirmə; məs.: *Qız razı deyil, atası razı deyil.* [5, s.127]; *O sənin oğlun, o da sən.* [5, s.46]; *Mən yalançıyam, mən böhtan deyənəm* [5, s.47]; *Rüstəm bəyi görüm iki gözlərindən olsun, hirsi*

*başında çatlasın.* [5, s.134]; *Belə bağ içində, belə qaranlıqda adam görmək olar, adam tutmaq olar?!* [5, s.132]; *Belə zülmü Allah da götürməz, bəndəyə də xoş gəlməz...* [5, s.49]; *Biri deyir pirə apar, biri deyir dua yazdır, birisi hırıldayır, birisi yalandan, guya ki, bizim dərdimizə qalır...* [5, s.81] və s.

Bir sıra cümlələrdə tərkib hissələrə aid ortaqlı zaman zərflikləri vardır və həmin zərfliklər tərkib hissələrdə qeyd olunan hadisələrin eyni bir zaman üzrə birləşmiş olduğunu daha aydın göstərir; məs.: *O zamanda xeyr var idi, bərəkət var idi.* [5, s.48]. Zaman üzrə birləşən cümlələrin bir qismi tərkib hissələrin paralelizmi əsasında qurulmuşdur; məs.: *Bu sənin oğlun, o da sən!* [5, s.51]; *Elm yox, tərbiyə yox, ədəb yox...* [5, s.85] və s.

b) ardıcılzamanlı birləşdirmə; məs.: *O günlərə daş düşəydi, zəlzələ oleydi, tarmar oleydi...* [5, s.24]; *Mənim atam sənin qardaşını öldürdü, sənin atan mənim atamı,* belədir? [5, s.115]; *Qoy mən bəyə əhvalatın hamısını nağıl eləyim, sənə bir turp əkim, tütünün başından çıxsın, ondan sonra gedə bilərsən.* [5, s.36]; Hərgah bilsəm ki, *Səadət məhəbbətini bir dəqiqə məndən kəsibdir, ikinci dəqiqə mənim bu dünyada axır nəfəsimdir.* [5, s.124]; *Qoy yatırdım gedək, sonra tərif elərsən!* [5, s.132] və s. Göründüyü kimi, belə cümlələrin tərkib hissələrində ifadə edilən hərəkətlər bir-birinin ardınca, sistematik surətdə icra olunur.

***2) Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr.*** Tabesiz mürəkkəb cümlənin bu növü də semantik strukturuna görə müasir modellərindən fərqlənmir: ya tərkib hissələrdəki iş və hadisələr mahiyyətcə bir-biri ilə ziddiyyət təşkil edir, yaxud da sadəcə olaraq qarşılaşdırılır, müqayisə edilir, fərqləndirilir. Belə cümlələrin tərkib hissələri qarşılaşdırma bağlayıcıları və intonasiya vasitəsilə əlaqələnmişdir; məs.: *qarşılaşdırma bağlayıcıları ilə: Həkim, qadan alım, verdiyiniz dava qurtarıb, amma uşaq da yaxşıdı.* [5, s.35]; *Xülasə, çox zəhmət çəkdim, amma çifayda oxumadı.* [5, s.60]; *Sən deyən olsun, ancaq hirslənmə.* [5, s.38]; *İntonasiya ilə: Bu işdə ölmək var, dönmək yoxdur...* [5, s.72]; *Genə sən yaxşısan, mən buraya bələd deyiləm.* [ 5, s.76]; *Xalqa it hürər, bizə çaqqal.* [5, s.84]; *İçərim özümü yandırır, çölüm özgəni...* [5, s.24] və s.

***3) Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr.*** Belə cümlələr qapalı sıralı olub, əsasən iki komponentdən ibarət olur. Komponentlərdən biri ümumilik bildirir, digəri onu izah edib aydınlaşdırır. Başqa sözlə, tabesiz mürəkkəb cümlələrin bu növündə birinci tərkib hissədə ifadə olunan fikir sonrakı tərkib hissədə və ya tərkib hissələrində müəyyənləşir. N. Vəzirovin pyeslərinin dilində tabesiz mürəkkəb cümlələrin bu növünün müşahidə olunan tipi yalnız sintez-analiz üsulu ilə qurulmuşdur, belə cümlələrin komponentləri, əsasən, intonasiya ilə əlaqələnmiş, yazıda iki nöqtə və ya nöqtəli vergüllə ilə fərqləndirilmişdir. Məs.: *Itin birisidir: bir özü, bir darağı...* [5, s.76]; *Kitab oxuyur, şəklə baxır; yəqin Səadət xanımın şəklidir.* [5, s.131]; Heç belə yorulmamışdım ki, *bu gün yorulmuşam; bizim bu camaat ilə məgər iş görmək olar.* [5, s.138]; *Allahın bir bəlasıdır ki, düşmüşəm: yemək yox, içmək yox, bir dəqiqə bir yerdə farağat oturmaq yox...* [5, s.125]; *Hürü nənə, zarafat yeri deyil; bir xatalı işə düşmüşük, səndən savay kömək yerimiz yoxdur.* [5, s.116]; *Gələndə çox qorxan vardı; birin deyər, ikisin deyərəm!* [5, s.44] və s. Qeyd edək ki, N.Vəzirovun pyeslərinin dilində aydınlaşdırmą əlaqəli tabesiz mürəkkəb cümlələrin çox işlənməsi ədibin üslubunu səciyyələndirməklə yanaşı, onun gündəlik həyatda gercəkləşən hadisələri və ya çatdırmaq istədiyi fikri açıqlamaq istəyi ilə bağlıdır.

***4) Səbəb-bəticə əlaqəli tabesiz mürəkkəb cümlələr.*** Ə. Cavadov yazır: "Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr birinci tərkib hissəsi səbəb, ikincisi nəticə bildirməklə iki komponentdən ibarət olur. Nəticə bildirən ikinci komponent əvvəlkinə məna və intonasiya ilə bağlanır, birinci komponentdən doğan obyektiv nəticəni bildirir. İşin, hərəkətin ardıcıl şəkildə baş verməsi və birinci cümlədəki işin ikinci cümlədəki işə səbəb olması bu əlaqəni yaradan yeganə vasitədir" [2, s.77]. Bu xüsusiyyət eyni dərəcədə N.Vəzirovun dilinə də aiddir; məs.: *Genə sir-sifətindən qan yağır, suya basılmış toyuğa oxşayırsan?!* [5, s.125]; *Əzizim, sənin samavarın gec oldu, mən gedim.* [5, s.42]; *Bu gün poçt günüdü, tamam çinovniklər yığılıb.* [5, s.42]; *Allah, mənim Səlman adlı oğlum ölsün, oğulsuz qalım!..* [5, s.51]; *Vallah, qoyaram ayağımın altına, çəkərəm, boğazı sərçə boğazı kimi üzülər.* [5, s.75]; *Qara dəryada gəmi qərq olub, tamam barama batıb...* [5, s.80]; *Gəmi batdı, it də getdi, ip də getdi...* [5, s.81] və s.

***5) Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələr.*** Müasir Azərbaycan dilində bölüşdürmə əlaqəsi, əsasən, bağlayıcıların iştirakı ilə yaranır [4, s.299]. Bölüşdürmə bağlayıcılarının funksiyası barədə C. Əfəndiyev yazır: "Cümlədəki vəzifəsinə görə bu bağlayıcılar bir hökmün və ya o hökm əlaqələndiyi əşyanın (predmetlərin) müxtəlif variantlara bölündüyünü və bunlardan ancaq birinin qəbul edilməsi mümkün olduğunu bildirir" [3, s.152]. N. Vəzirovun pyeslərinin dilində də bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələrin komponentləri *ya...ya, yoxsa, bir...bir* bağlayıcılı vasitəsilə bağlanmışdır ki, bunlardan üçüncüsü canlı danışıq dili xüsusiyyətidir; məs.: Bu canım ölsün ki, *ya sən dəli olubsan, ya bizi əcəl girləyib...* [5, s.132]; *Mən sənin ovqatını təlx eləyirəm, yoxsa sən məni?* [5, s.25]; Bircə, qadam, buyur görüm, *bu yetimin sahibi sənsən, yoxsa bunun yüz dargası var?* [5, s.50]; Ay gədə, *mən dəli olmuşam, bilmirəm, yoxsa sən?* [5, s.67]; *Bir deyirsən ki, mənə baxmaq günahdır, bir də deyirsən məhrəm olaram.* [5, s.99] və s. Sonuncu

cümlədəki *bir...bir* bağlayıcısı iki tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlənin bölüşdürmə əlaqəsi ilə bir-biri ilə əlaqələnməsinə xidmət etmişdir.

***6) Qoşulma əlaqəli tabesiz mürəkkəb cümlələr*** yazarın pyeslərinin dilində az işlənmiş, tərkib hissələri *da* bağlayıcısı ilə əlaqələnmişdir; məs.: *İndi sən belə dur, özün də buradan get...* [5, s.136]; *Yox, bu evi yıxılmış Rüstəm bəy farağat oturmayacaq, ölənəcən barışıq da ola bilməz.* [5, s.134] və s.

Nəticə olaraq, onu deyə bilərik ki, N. Vəzirovun pyeslərinin dilində tabesiz mürəkkəb cümlənin bütün növlərindən intensiv şəkildə istifadə etmişdir. Müşahidə edilən tabesiz mürəkkəb cümlələrdə tərkib hissələr, əsasən, intonasiya vasitəsilə əlaqələnmişdir ki, bu da dilin qrammatik quruluşundan daha çox, N. Vəzirovun üslubunu səciyyələndirən xüsiyyət kimi diqqət çəkir.

## Ədəbiyyat


1. Abdullayev Ə., Seyidov Y., Qasımov A. Müasir Azərbaycan dili, Sintaksis, Bakı, 2007
2. Cavadov Ə. Mürəkkəb cümlələrin tərəflərinin sıralanması // Azərbaycan SSR EA-nın Xəbərləri (Ədəbiyyat, dil və incəsənət seriyası), Bakı, 1974, № 1, s. 77-79
3. Əfəndiyev C. Bağlayıcı // Azərbaycan dilinə aid tədqiqlər, Bakı: 1947, s.151-157
4. Kazımov Q. Ş. Müasir Azərbaycan dili. Sintaksis., "Aspoliqraf LTD" MMC, Bakı: 2004
5. Vəzirov N. Əsərləri, Şərq-Qərb, Bakı, 2005



## Summary

The role of the folk language on the formation and development of Azerbaijani literary language in the creativity of the XIX century playwright N. Vezirov, the structural-semantic features of the compound sentences used in the plays by the writer were analyzed in the article



**Qurbanlı Xatirə Tacəddin qızı**
**Əhmədova Turac Cəlaləddin qızı**
**Binnətova Aynurə Oqtay qızı**
*Bakı Slavyan Universiteti*


# AZƏRBAYCANIN ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN V SİNİFLƏRİNDƏ DELPİ PROQRAMLAŞDIRMA DİLİNDƏN İSTİFADƏ ETMƏKLƏ ÇOXLUQLAR NƏZƏRİYYƏSİNİN ÖYRƏDİLMƏSİ


*Açar sözlər: Çoxluq, proqram, informasiya texnologiyaları, kompüter, proqramlaşdırma dili.*
*Key words : the majority, program, information technology computer programming language*


*"Təhsil millətin gələcəyidir"* H. Əliyev.

Təhsil cəmiyyətin inkişafını şərtləndirən strateji sahədir. Müasir dünyamız və bəşəriyyət malik olduğu hazırkı inkişaf səviyyəsinə görə məhz təhsilə borcludur.Cəmiyyətin tərəqqisinin vacib amilləri olan elm və mədəniyyətin, xalqın intellektual potensialının formalaşması onun təhsil sistemi ilə təmin edilir.

Müstəqilliyin çətin yolları irəliləyən Azərbaycan bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də böyük vəzifələr yerinə yetirmək zərurəti ilə üz-üzə dayanmışdır. Ölkəmizdə start götürmüş yeni islahatçılıq hərəkatı çərçivəsində təhsil sahəsində də mühüm dəyişikliklərin, yeniliklərin həyata keçrilməsi obyektiv tələbatdır. Respublikada yeni tipli məktəblərin açəlması,çoxsaylı kadırların yetişdirilməsi sahəsində ciddi dəyişikliklər 20-ci illərdən, Azərbaycan sovetləşəndən sonra başlandı. Yalnız bu dövrdən etibarən savadsızlığın aradan qalırılması, bütün kənd və şəhərlərdə dünyəvi təsil məktəblərinin açılması dövlət siyasətinin vacib istiqaməti oldu. Qısa vaxtda geniş məktəblər şəbəkəsinin yaradılması və ibtidai təhildə icbarilik elementlərinin təsdiq edilməsi əhalinin böyük bir hissəsinin təlim-tərbiyə prosesinə cəlb olunmasına zamin yaratdı.

Müstəqil Azərbaycanın xalq təsərrüfatı müasir tələblərə cavab verən kadırlara böyük ehtiyacı var. Kadırların ilkin hazıtlığı orta məktəbdən başlayır. Riyaziyyatın orta məktəbdə təlimi məqsədlərindən biri şagirdlərdə bacarıq və vərdişlərin formalaşması və inkişaf etdirilməsidir. Bu da öyrənilən biliklərin praktikada- həyatda tətbiq edilməsi ilə bağlıdır, çünki nəzəri bilik o zaman həyatı əhəmiyyət kəsb edir ki, o praktikaya tətbiq edilsin.